Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycandan regionda davamlı sülhə növbəti mühüm töhfə...

**Cənubi Qafqazda cərəyan edən son hadisələr Ermənistanın gələcəyinin getdikcə daha çox Azərbaycandan asılı vəziyyətə düşməkdə olduğunu artıq real nümunələr əsasında təsdiq edir. Proseslərin gedişi göstərir ki, Azərbaycanla, bunun ardınca Türkiyə ilə normal münasibətlər qurmadan Ermənistanın ümumiyyətlə bir dövlət kimi varlığını davam etdirməsi mümkün deyil.**

Azərbaycan Dağlıq Qarabağ münaqişəsini öz maraqları və ən əsası ərazi bütövlüyünün bərpası prinsipi üzərində həll etməklə Ermənistanla əməkdaşlığı mümkün sayır və hətta bu istiqamətdə real addımlar da atır.

**Sülh üçün Bakıdan önəmli jest...**

Rəsmi Bakı Cənubi Qafqazda davamlı sülhün mövcudluğunda daim maraqlı olduğunu bildirib, bu istiqamətdə müvafiq addımlar da atıb. Qarabağ münaqişəsinin tarixə qovuşmasından sonra Azərbaycan regionda qalıcı sülh üçün yeni manevr imkanları qazanıb. Təbii ki, burada söhbət ilk olaraq Ermənistanın da cəlb olunduğu regional kommunikasiya xətlərinin bərpası, yenilərinin yaradılmasından gedir.

Digər tərəfdən, Azərbaycan başqa istiqamətlər üzrə də Ermənistanla əməkdaşlıq edə biləcəyini artıq əməldə nümayiş etdirir. Məsələn, artıq məlumdur ki, Rusiyanın "Qazprom eksport" şirkəti Ermənistana Azərbaycan üzərindən qaz nəqlinə dair SOCAR-la qısamüddətli müqavilə imzalayıb. Müqaviləyə əsasən, Ermənistana satılan Rusiya qazı üç həftə ərzində Azərbaycan üzərindən bu ölkəyə ötürüləcək. "Qazprom eksport" bunu "Şimali Qafqaz - Zaqafqaziya" qaz kəmərində planlaşdırılmış profilaktik təmir işləri ilə əlaqələndirib.

SOCAR-ın İctimaiyyətlə əlaqələr departamentinin rəis müavini İbrahim Əhmədov bildirib ki, "Şimali Qafqaz - Zaqafqaziya" qaz kəmərində aparılan təmir işləri nəzərə alınaraq, Rusiya tərəfi Rusiya qazının Gürcüstan ərazisinə tranziti üçün Azərbaycana müraciət edib: "Xahiş yerinə yetirilib və Rusiya qazı martın 17-dən başlayaraq müvafiq tranzit ödənişi ilə Azərbaycan ərazisindən Gürcüstan ərazisinə və oradan Ermənistana çatdırılır". Ekspertlər hesab edir ki, Azərbaycan və Rusiya arasında ölkəmizin ərazisi ilə Ermənistana qaz ötürülməsi haqda qısamüddətli müqavilə Qarabağ münaqişəsi başa çatdıqdan sonra tarixi məqam hesab edilə bilər. Çünki 10 noyabr üçtərəfli razılaşmasına əsasən, tərəflər qarşılıqlı olaraq kommunikasiyaların açılmasını müzakirə edir, o cümlədən digər region ölkələri üçün də strateji əhəmiyyət daşıyan, Zəngəzur dəhlizi adlandırılan quru və dəmiryol kommunikasiyalarının açılmasına dair danışıqlar aparılır.

Belə bir vaxtda Azərbaycan tərəfi Rusiya qazının Ermənistana tranzitinə icazə verməklə regionda böyük sülhə doğru ilk addımı atmış olur. Bu addım Ermənistana regionun gələcəyinin qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq üzərində qurulmalı olduğuna dair simvolik mesajdır. İndiki halda Azərbaycan öz ərazisindən qaz nəqlinə icazə verməsə, Ermənistan qazsız qala bilərdi. Amma Azərbaycan artıq regionda sülh və əməkdaşlıqda maraqlı olduğunu praktiki nümayiş etdirir. Azərbaycan həm də bununla Ermənistanı fakt qarşısında qoyur, real əməkdaşlıqda maraqlı olduğunu faktiki sübuta yetirir. Ekspertlərin fikrincə, Azərbaycan ərazisindən qazın Ermənistana nəqli ölkəmizlə əlaqələrin qurulmasının vacibliyini bəyan edən ermənilərin mövqelərinin də güclənməsinə xidmət edə bilər. Bununla onlar Ermənitanın Azərbaycan və gələcəkdə Türkiyə ilə əməkdaşlığın ermənilər üçün daha faydalı ola biləcəyinə dair yeni arqumentlər əldə etmiş olur. Fikirlər də səslənir ki, Azərbaycanın Ermənistana tranzit qaz nəqlindən dünyadakı erməni lobbisinin və onların dəstəkçilərinin ölkəmizə qarşı təxribatlarını neytrallaşdırmaq məqsədilə də istifadə edilə bilər. Onlara artıq əyani olaraq göstərilir ki, Azərbaycan torpaqlarını uzun illər işğal altında saxlayan, şəhər, qəsəbə və kəndləri viran qoyan Ermənistana Qarabağ münaqişəsinin həllindən sonra Bakının razılığı ilə ölkəmizdən qaz ötürülür. Bu da Azərbaycanın Ermənistana qarşı hansısa bədxah məqsədlər güdməməsinin real təzahürüdür. Digər tərəfdən, Ermənistana qaz nəqli Zəngəzur dəhlizinin, Naxçıvanla kommunikasiya xəttinin açılması prosesini sürətləndirmək iqtidarındadır.

**Qarabağ məsələsindən siyasi, iqtisadi məqsədləri üçün istifadə edənlər isterikaya düşüb**

Azərbaycanın əməkdaşlıqla bağlı etdiyi jestlər Ermənistanda sülhə qarşı olan bəzi qüvvələri artıq ciddi narahat edib. Bu, xüsusən də Qarabağ münaqişəsindən öz siyasi, iqtisadi məqsədləri üçün istifadə etmiş qüvvələrə aiddir. Elə bu səbəbdəndir ki, onlar Azərbaycan üzərindən Ermənistana qaz ötürülməsini süngü ilə qarşılayır. Beləlləri sırasında yer alan "Daşnaksütyun" partiyasının iqtisadi tədqiqatlar bürosunun əməkdaşı, iqtisadçı Suren Parsyan qeyd edir ki, Bakı və Moskva arasında razılaşma daha uzunmüddətli perspektivləri əhatə etmirsə, Ermənistanın üç həftə ərzində Azərbaycandan qaz idxalına ehtiyacı yoxdur: "Ermənistanın üç həftəlik qaz ehtiyatları var. Ermənistana gələn qazın Azərbaycan ərazisindən keçməsi kimə sərf edir? Qeyd etmək lazımdır ki, Abovyan qaz anbarında yığılan təbii qaz həcmləri üç həftədən çox müddətdə Ermənistanın daxili tələbatını ödəmək üçün kifayətdir. Yəni Ermənistanın üç həftə ərzində Azərbaycandan qaz idxal etməsinə ehtiyac olmayacaq. Əlbəttə ki, bu saziş daha uzunmüddətli perspektivlər güdmürsə… Diqqətəlayiq haldır ki, hərbi vəziyyətdə olan ölkəmizin hökuməti bu qərara hələ heç bir cavab verməyib və həmin qərarın Ermənistanın maraqlarına nə dərəcədə uyğun olduğunu açıqlamayıb. Nəticədə bu sövdələşmənin səbəbinin Türkiyə-Azərbaycan tandeminin, nəyin bahasına olursa-olsun, əldə etməyə çalışdığı Ermənistanın infrastrukturlarını açmaq adı altında suveren Naxçıvan-Azərbaycan yolunun güzəştə gedilməsi olduğunu düşünmək qalır".

Halbuki, daşnak rəsmisinin dediklərindən fərqli olaraq, Azərbaycan sadəcə burada əməkdaşlıq məsələsi üzərində fokuslanıb və indiki halda bu, Ermənistanın özü üçün də olduqca vacibdir. Lakin yuxarıda qeyd edildiyi kimi, Qarabağ münaqişəsindən siyasi, iqtisadi məqsədlər üçün istifadə etməyə cəhd edən qüvvələr Azərbaycan və Ermənistan arasında mümkün əməkdaşlıqdan ciddi şəkildə xoflanıb. Çünki bu əməkdaşlıq həmin qüvvələrin Qarabağ kartından öz məqsədləri üçün istifadə imkanlarını əllərindən almış olur. Amerikalı siyasi şərhçi Pol Qobl bildirir ki, belə qüvvələr Azərbaycan və Ermənistan arasında daha çox gərginlik olmasını istəyir. O hesab edir ki, Ermənistanda və Rusiyada bəzi qüvvələr əməkdaşlığın inkişaf etməsini, Zəngəzur dəhlizinin açılmasını istəmir: " Ermənistan Zəngəzur öhdəliyinə əməl etməkdən imtina etsə, bu halda hərbi münaqişə də alovlana bilər. Azərbaycan Xankəndinə çox yaxındır. Azərbaycan bütün işğal olunmuş ərazisini geri qaytara bilər. Bunu etmək çətin də deyil. Rusiyanın sülhməramlılarının sayı o qədər də çox deyil. Öz sülhməramlılarının sayını artırmaq isə Rusiyanın irimiqyaslı müdaxiləsi demək olar. Bunu, məncə, Rusiya etmək istəmir. Rusiyanın dünya qarşısında sülhməramlı imicini saxlamaq kimi strateji marağı var. Ümid edirəm ki, Rusiyanın strateji maraqları önə çəkiləcək". Məhz bu vəziyyətdə Ermənistanda Azərbaycanla əməkdaşlığa qarşı çıxan qüvvələrin mövqeyinin daha da zəifləməsi qaçılmaz sayılır. Çünki prosesdə artıq Rusiya da maraqlıdır. Erməni ekspert İşxan Verdiyan bildirir ki, əməkdaşlığa qarşı çıxan qüvvələr Azərbaycanla savaş olacağına dair xof yaratmağa çalışsalar da fiaskoya uğrayacaqlar: "Onlar deyirlər ki, yenə nəsə böyük bir hadisə başlayacaq. Məncə, bu cəfəngiyyatdır. Belə bir şeyin baş verməsi qeyri-mümkündür. Dəqiq bildiyim budur ki, Ermənistanda heç kim müharibə istəmir".

**İrəvan Bakıya möhtacdır**

Beləliklə, proseslər göstərir ki, Azərbaycan, Rusiya, Ermənistan liderləri arasında keçən il noyabrın 10-da imzalanmış bəyanat artıq regionda həqiqətən də yeni vəziyyət yaradır. İlk növbədə Azərbaycan və Ermənistan arasında real əməkdaşlıq başlanır və bu da qalıcı sülh üçün olduqca önəmlidir.

Artıq faktdır ki, Ermənistan 10 noyabr bəyanatının müddəalarına sadiq qalacağı təqdirdə bundan sonra da Azərbaycanın infrastrukturundan faydalana biləcək. Bu da ciddi iqtisadi sıxıntıları və xaricdən böyük enerji asılılığı olan Ermənistan üçün çox vacibdir. Dövlət İqtisad Universitetinin Rus İqtisad Məktəbinin direktoru Mənsur Bərxudarov bu xüsusda qeyd edir: "Ermənistanın hazırki iqtisadi imkanları müstəqil şəkildə hər hansı kommunikasiyaların inşasını mümkünsüz edir. Bu faktor onun Azərbaycandan asılı vəziyyətə düşməsini labüd edir. Ona görə də Ermənistanın üçtərəfli bəyanatın müddəalarına sadiq qalmaqdan və revanşist niyyətlərdən əl çəkərək konstruktiv mövqe ortaya qoymaqdan başqa bir alternativi yoxdur. Əks təqdirdə siyasi burulğan içərisində çalxalanan qonşumuz həm də dərin iqtisadi böhrana sürüklənmək perspektivi ilə üzləşəcək". Ekspert diqqətə çatdırıb ki, bu, eyni zamanda Azərbaycanın çox güclü və effektiv enerji infrastrukturuna malik olmasının göstəricisidir: "Ölkəmiz əməli olaraq 10 noyabr bəyanatına sadiq olduğunu göstərir. Bu, həm də qarşı tərəfə bir ismarıcdır. Yəni Ermənistan konstruktiv yanaşma ortaya qoyduqca kommunikasiyaların açılması Azərbaycan tərəfindən təmin olunacaq. Bu gün faktiki olaraq regionun dalanına çevrilən Ermənistan üçün Azərbaycanın bu cür addımı həyati vacibdir. Çünki infrastrukturun bərpası onun xarici investisiyalar üçün cəlbediciliyini artırmaqla yeni regional layihələrin iştirakçısı olmasında vacib rol oynaya bilər".

Hesab edilir ki, hadisələrin indiki inkişaf axarı artıq Azərbaycanın istədiyi kimi Zəngəzur dəhlizinin də qarşıdakı müddətdə işə düşməsinə gətirib çıxaracaq. Azərbaycanla əməkdaşlığın Ermənistan üçün nə dərəcədə vacib olduğunu isə o zaman ermənilər praktiki olaraq görəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**